***"Azərbaycan Respublikası Milli Məclisinin Azərbaycan – ABŞ parlamentlərarası əlaqələr üzrə işçi qrupu ABŞ-da Senatın Prezidentə ünvanladığı məktubla bağlı bəyanat qəbul edib. Bəlli olduğu kimi bəyanat 2021-ci il fevralın 9-da ABŞ Senatının bəzi üzvləri tərəfindən ABŞ-ın yeni Prezidenti Cozef Baydenə ünvanlanmış məktubla əlaqədar verilib. Məktubu imzalayan senatorlar Türkiyəni haqsız yerə tənqid ediblər. Bu tənqid, Türkiyənin beynəlxalq hüququn verdiyi haqlardan istifadə edərək öz ərazisini işğalçı qüvvələrdən təmizləyən Azərbaycana göstərdiyi mənəvi dəstəklə bağlıdır". Bu fikirləri Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva ABŞ prezidentinə ünvanlanan məlum məktuba münasibət bildirərkən dedi. Q. Paşayeva daha sonra fikirlərinə bunları əlavə etdi:***

# ABŞ senatorları ədalətin üstündən yox, altından xətt çəkməlidirlər



– Senatorların olduqca qərəzli əsasda yazılan məktubuna Azərbaycan – ABŞ parlamentlərarası əlaqələr üzrə işçi qrupunun bəyanatında tutarlı cavab verilib. Doğrudan da, çox təəccüblüdür ki, sözügedən məktuba imza atan ABŞ senatorlarının böyük qismi heç vaxt Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınan ərazilərini 30 ilə qədər işğal altında saxlayan Ermənistanı işğala son qoymağa çağırmayıb. Elə yalnız bu danılmaz faktın özü o məktubun necə hazırlanması, dünya erməniliyinin, ABŞ-dakı erməni diaspor və lobbi güclərinin əsassız iddialarının məhsulu olduğunu sübut edir. Əgər Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi o senatorları bu qədər yaxından qayğılandırırdısa, nə əcəb, Ermənistan silahlı qüvvələrinin törətdiyi insanlıqdankənar hərəkətlərə və o hərəkətlərin 30 ilə yaxın davam etməsinə reaksiya verməmişdilər?! Xocalı soyqırımı törədiləndə, ibadətgahlar, muzeylər, mədəniyyət müəssisələri, kitabxanalar, mülki yaşayış məntəqələri dağıdılanda və bu dağıntılarla bağlı Azərbaycan dövləti, vətəndaş cəmiyyəti institutları dünya birliyinə müraciətlər edəndə indi məktub yazan senatorlar haradaydı?

Özü də ölkələri ATƏT-in Minsk qrupunun həmsədri olduğu halda susub o senatorlar. Ona görə də onların elə bir məktub yazmağa mənəvi haqları yoxdur. İkincisi, təsəvvür edək ki, hər hansı formada məktub yazmaq haqları var, o zaman yazdıqları şər-böhtan, yalan, riya olmamalıydı. Yəni hansı tərəfdən baxılırsa-baxılsın, ABŞ senatorlarının ölkələrinin Prezidentinə göndərdikləri məktub bədnamdır, qəbuledilməzdir. ABŞ senatorlarının çoxunun, Ermənistanın işğalı nəticəsində Azərbaycan xalqına qarşı etnik təmizləmə siyasətinin həyata keçirilməsi, 1 milyona yaxın azərbaycanlının öz ata–baba torpaqlarından didərgin salınaraq məcburi köçkünə çevrilməsi barədə mövqeyi, ədalətli yanaşması ortada yoxdursa, belə bəyanatların hansı mənəvi-hüquqi gücü ola bilər?

Bu məktubu imzalayanlar tarix qarşısında, gələcək nəsillər qarşısında məsuliyyət daşıyır və ABŞ demokratiyasını öz əsassız iddialarının kölgəsi altına salmağa cəhd edirlər. Bu, bir sui-istifadə halıdır. Belə senatorların insan hüquq və azadlıqlarından danışmamaları daha yaxşı olardı. Məsuliyyətsiz senatorların ABŞ demokratiyasına, beynəlxalq birliyin inandığı insan hüquq və azadlıqlarına meydan oxumaq, ABŞ – Azərbaycan münasibətlərinə zərbə vurmaq niyyətini, planını gizlətmək mümkün deyildir.

Belə bir bəyanatın Xocalı soyqırımının 29-cu ildönümü ərəfəsində verilməsini, o bəyanatın nə qədər qeyri-insani, nə qədər qərəzli və həqiqətləri ört-basdır etmək üçün hazırlandığını ifadə etdiyini deyən komitə sədri daha sonra bildirdi:

– Milli Məclisin Azərbaycan – ABŞ parlamentlərarası əlaqələr üzrə işçi qrupunun bəyanatında açıq və sərrast ifadə olunduğu kimi, müstəqil Azərbaycan Respublikasının ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığına hörmət edilməsi, Ermənistanın işğalına son qoyulması tələbi BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş müvafiq qətnamələrində (822, 853, 874, 884) öz əksini tapıb və rəsmi Vaşinqton bütün bu qətnamələrin lehinə səs verib. Üstəlik, Azərbaycan Respublikası öz torpaqlarını işğaldan məhz beynəlxalq hüquqa uyğun olaraq azad edib və bununla da ABŞ-ın da səs verdiyi BMT Təhlükəsizlik Şurası qətnamələrinin icrasını təmin edib.

Azərbaycanın BMT və ABŞ-ın özü tərəfindən tanınmış sərhədləri daxilində Ermənistanın silahlı qüvvələrinin 30 ilə yaxın müddətdə hansı statusla mövcud olması sualına cavab axtarmayan senatorlar, Azərbaycanın sülhə məcburetmə əməliyyatını istisnasız olaraq öz sərhədləri daxilində apardığını da görməzliyə vurur. Heç şübhəsiz, ABŞ senatorlarının bəyanatı, buna bənzər bəyanat və açıqlamaları Cənubi Qafqazda sülhə və təhlükəsizliyə deyil, yeni müharibənin alovlanmasına xidmət edir, deyə bilərik.

Sonda Qənirə Paşayeva həmin məktubda qardaş Türkiyənin adının haqsız yerə hallandırılmasına da münasibət bildirdi:

– Üstəlik, Azərbaycanın haqlı mübarizəsinə siyasi və mənəvi dəstək verən qardaş Türkiyənin adının hallandırılması, haqsız tənqid olunması qətiyyən qəbul edilə bilməz və tam bir ədalətsizlikdir. Senatorlar Türkiyənin daxili işlərinə qarışmaq cəhdlərindən çəkinməli, özünün tərəfdar olduğu beynəlxalq hüquq norma və prinsiplərinə əməl etməlidir. Bu, ABŞ-ın nüfuzuna xidmət etmiş olardı.

Təsəvvür edin ki, elə bu günlərdə ABŞ Konqresinə daxil olan etirazçılar ən ağır ifadə ilə – "terrorçu" adlandırıldığı halda, 5 il öncə (15 iyun 2016-cı il) qardaş Türkiyədə demokratik yolla seçilmiş qanuni hakimiyyəti zorakı, hərbi çevriliş yolu ilə devirməyə çalışan bir hərəkatı dəstəkləmək heç bir qayda-qanuna, dövlətlərarası münasibətlərin elementar tələblərinə, məntiqə sığmır. ABŞ senatorları öz ölkələrinin NATO müttəfiqi və strateji tərəfdaşı olan qüdrətli Türkiyənin bölgədəki önəmli sülhyaratma, sabitləşdirici və çəkindirici rolunu düzgün qiymətləndirməli, minnətdar olmalıdır.

ABŞ senatorları ədalətin üstündən deyil, altından xətt çəkməlidirlər...

***Zərifə BƏŞİRQIZI,***
***"Xalq qəzeti"***